# Təkfir fitnəsi.

**Müəllif:** Alim və mühəddis şeyx Muhəmməd Nasiruddin əl-Albani.

**Tərifli rəy:** Möhtərəm alim şeyx Abdulaziz bin Baz.

**İzah:** Alim şeyx Muhəmməd bin Saleh əl-Useymin.

# Rəhimli və Mərhəmətli Allahın adı ilə.

## Təkfir məsələsi barəsində şeyx əl-Albaninin ﵀ söylədikləri.

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.[1]

Şübhəsiz ki, təkfir məsələsi yalnız hakimlərə aid edilmir, əksinə, həm də onların tabeçiliyində olanlara (adi insanlara) aid edilir. Ümumilikdə isə bu məsələ çox qədim və böyük bir fitnədir ki, bunun

---

[1] Bu şeyx əl-Albaninin ﵀ sözünün başlanğıcıdır. Bu hicri ilə 1413/5/12 tarixində (miladi ilə 1992/11/7 tarixində) yazılmış 670 nömrəli lent yazısından götürülmüşdür. Bu yazı Ukkaşə Abdulmənnanın tərtib etdiyi "Şeyx əl-Albaninin fətvaları və bunun alimlərin fətvaları ilə müqayisəsi" adlı kitabın daxilində də (səh. 238-253) çap olunmuşdur. Bunu da "əs-Sələfiyyə" jurnalı hicri tarixi ilə 1415-ci ilin birinci nömrəsində və "əl-Muslimun" qəzeti hicri ilə 1416.5.5 tarixinin (miladi ilə 1995.9.29 tarixinin) 556-cı nömrəsində çan etmişdir.

da əsası "Xavariclər"[1] adı ilə tanınmış qədim İslam firqələrindən olan bir firqədən götürülmüşdür.

Çox təəssüf ki, bəzi dəvətçilər və ya şövqə gələnlər Kitab və Sünnədən kənara çıxırlar. Amma bunu kitab və Sünnənin adı ilə edirlər. Bunun səbəbi də iki şeydən irəli gəlir:

Birinci: Elmin səthiliyi.

İkinci – ən mühümü də elə budur: Onların şəriət qaydalarını öyrənməməkləri. O qaydalar ki, səhih İslam dəvətinin əsasını təşkil edir və bunlardan kənara çıxan hər bir şəxs Peyğəmbərin ﷺ bir çox hədislərdə tərifləmiş olduğu camaatdan sapan firqələrdən sayılır. Həmçinin bu qaydaları uca Rəbbimiz (Qurani Kərimdə) xatırlamış və bəyan etmişdir ki, onlardan kənara çıxan şəxs Allaha və Onun rəsuluna qarşı çıxmış olur. Uca Allah buyurur:

---

[1] Xavariclər müxtəlif tayfalardır. Onlar barəsində firqələrlə bağlı kitablarda qeyd olunur. Onlardan bəziləri hal-hazırkı dövrümüzdə başqa bir ad altında ("İbadiyyə" adı altında) mövcuddurlar. Həmin "İbadiyyə"lər bu yaxın vaxtlara qədər qapanıb qalmışdılar. Belə ki, dəvətlərində onların heç bir fəaliyyəti yox idi. Lakin onlar bir neçə il bundan öncə bəzi risalələrini, kitablarını və eynilə qədim xavariclərin əqidəsi olan əqidələrini yaymaqla fəaliyyətə başladılar. Onların xavariclərdən fərqli yeganə cəhətləri ondan ibarətdir ki, onlar şiyələrə xas olan bir xisləti özlərində gizli saxlayırlar. Bu da ki, "Tuqya" (özünü olduğu kimi deyil, başqa cür göstərmək...) əqidəsidir. Onlar deyirlər ki, "Biz xavaric deyilik". Amma haqq budur ki, adlar adlandırılanlarda olan həqiqətlərdən heç nəyi dəyişdirmir. Onların xavariclərlə üst-üstə düşən əqidələrindən biri də böyük günah sahiblərini təkfir etmə məsələsidir.

**“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.”**[1]

Elm əhlinə aydındır ki, uca Allah heç də **“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa... onu üz tutduğu yola yönəldər”** sözü ilə kifayətlənməmişdir. Əksinə uca Allah möminlərin yolundan qeyrisinə uymağı Elçiyə qarşı çıxmağa əlavə edərək belə demişdir: **“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.”**[2]

Möminlərin yolu ilə getmək və ya getməmək həm mənfi, həm də müsbət tərəfdən çox mühüm bir məsələdir. Odur ki, kim möminlərin yolu ilə gedərsə aləmlərin Rəbbi yanında nicat tapar, kim də möminlərin yoluna müxalif olarsa Cəhənnəm ona yetər və ora necə də pis dönüş yeridir.

Elə buradan da – həm keçmişdə, həm də müasir dövrdə – çoxlu sayda tayfalar yollarını azdılar. Çünki onlar möminlərin yoluna tabe olmamaqla kifa-

---

[1] ən-Nisa, 115.
[2] ən-Nisa, 115.

yətlənib dayanmadılar, əksinə onlar bununla bərabər Kitab və Sünnənin təfsirində öz ağıllarına və şəhvətlərinə uydular. Sonra da bunun üzərinə çox təhlükəli bir nəticələr qurdular və beləliklə də sələfi salehin ﷺ üzərində olduğu yoldan kənara çıxdılar.

Ayənin **"möminlərin yolundan başqa bir yolla getsə"** hissəsini Peyğəmbər ﷺ bir çox hədislərdə açıq-aydın təsdiqləmişdir. Həmin hədislərin bəzilərini qeyd edəcəyik. Bu hədislər nəinki xüsusi müsəlmanlara, hətta sadə müsəlmanlara da gizli deyildir. Lakin bu hədislərdə gizli olan yeganə şey hədislərin Kitab və Sünnənin fəhmində möminlərin yoluna tabe olmağın zəruriliyinə, bunun vacibliyinə və təsdiqlənməsinə dəlalət etməsidir.

Bu nöqtənin zəruriliyindən və vacibliyindən hətta xüsusi insanlar belə qafildirlər və buna çox fikir vermirlər. Xüsusən də təkfir camaatı adı ilə tanınanlar və ya özlərini cihada mənsub edən camaatların bəziləri. Həqiqətdə isə onlar (cihad camaatı deyil) təkfirin qalıqlarıdır.

Ola bilsin ki onların özlərinin daxilində saleh və ixlaslı olanları da olsun. Amma sahibinin uca Allah dərgahında müvəffəqiyyət qazananlardan və nicat tapanlardan olmasına tək bu kifayət etmir. Odur ki, hər bir müsəlman mütləq özündə iki şeyi cəm etməlidir:

1. Niyyəti uca Allah üçün sidq ixlaslı etmək.

2. Peyğəmbərin ﷺ yoluna gözəl şəkildə tabe olmaq.

Deməli müsəlmanın ixlaslı olub bunun müqabilində Kitab və Sünnə ilə əməl etməsi və onlara dəvət etməsi onun üçün kifayət deyildir. Bundan əlavə onun tutduğu mənhəc (yol) mütləq düz, salamat, sağlam və doğru olmalıdır. Bu isə yalnız bu ümmətin keçmiş nəslinin salehlərinin ؓ getdikləri yola tabe olmaqla tamamlanır.

Bu dediklərimizi gücləndirən sabit və məşhur hədislərdən biri də yetmiş üç firqə hədisidir. Bu hədisdə Peyğəmbər ﷺ demişdir: ***"Yəhudilər yetmiş bir firqəyə böləndülər, nəsranilər yetmiş iki firqəyə böləndülər, mənim ümmətim isə yetmiş üç firqəyə bölünəcəkdir. Bunların birindən başqa hamısı Cəhənnəmdə olacaqdır." Soruşdular ki, "Ey Allahın elçisi o (Cəhənnəmdə olmayan firqə) kimlərdir?" O dedi: "Camaatdır."*** Başqa bir rəvayətdə isə ***"Mənim və səhabələrimin yolunda olanlardır"*** deyilir.

Buradan görürük ki, Peyğəmbərin ﷺ cavabı öncə qeyd etdiyimiz **"möminlərin yolundan başqa bir yolla getsə"** ayəsi ilə üst-üstə düşür. Ayənin ümumiliyinə isə ilk öncə Peyğəmbərin ﷺ səhabələri daxildirlər.

Peyğəmbər ﷺ ***"Mənim yolumda olanlardır"*** sözü ilə kifayətlənə bilərdi, – hərçənd ki, bu söz Kitab və Sünnəni həqiqi başa düşən müsəlmana ki-

fayət edir – lakin o uca Allahın haqqını ödəyərək Onun (öncə qeyd etdiyimiz) ayəsini əməli olaraq tətbiq etdi (və hədisdə ***"... və səhabələrimin yolunda olanlardır"*** sözünü də dedi). Çünki o ﷺ **"Möminlərə şəfqətli, rəhmlidir."**[1]

Peyğəmbərin ﷺ öz səhabələrinə və ardıcıllarına olan şəfqətinin və rəhminin kamilliyindəndir ki, o, onlara nicat tapan firqənin əlamətini açıqlamışdır ki, onlar Peyğəmbərin ﷺ və ondan sonra gələn səhabələrinin yoluna tabe olanlardan olsunlar.

Odur ki, bütün müsəlmanlar, xüsusən də dəvətçilər Kitab və Sünnəni düzgün başa düşmək üçün nəsx-mənsuxu, ərəb dilini və fəhm üçün tanınmış olan digər bu kimi başlıca səbəbləri öyrənməkdə passiv olmamalıdırlar. Əksinə onlar hər şeydən öncə mütləq Peyğəmbərin ﷺ səhabələrinin getdikləri yola dönməlidirlər. Çünki səhabələr barəsində varid olan əsərlərdən və onların həyatlarından aydın olur ki, onlar uca Allaha ibadətdə ən ixlaslı və Kitab və Sünnədə bizdən daha elmli idilər. Bununla yanaşı onlar bir çox tərifəlayiq sifətlərə də malik idilər.

Bu hədis faydasına və səmərəsinə görə tamamilə raşidi xəlifələr hədisinə bənzəyir. "Sünən" kitablarında gələn bu hədisdə İrbar bin Səriyə رضي الله عنه rəva-

[1] ət-Təubə, 128.

yət edir ki: ***“Peyğəmbər ﷺ bizə elə bir moizə etdi ki, ondan bütün qəlblər qorxuya düşdü və bütün gözlər yaşardı. Biz dedik: “Ey Allahın elçisi! Bu sanki vidalaşma moizəsidir, elə isə bizə vəsiyyət et!” Peyğəmbər ﷺ dedi: “Üzərinizdə həbəşi bir qul əmirlik etsə belə onu eşidib ona itaət etməyi sizə vəsiyyət edirəm. Həqiqətən sizlərdən kimi həyatda qalarsa bir çox ixtilaflar görəcəkdir. Odur ki, sizə mənim və məndən sonra gələn raşidi xəlifələrin sünnəsindən yapışmağı buyururam. Ondan arxa dişlərinizlə yapışın...”***

Bu hədisdə olan əsas məqam Peyğəmbərin ﷺ öncə verilən suala verdiyi cavabının mənasıdır. Belə ki, Peyğəmbər ﷺ (bütün) səhabələri qarşısında öz ümmətini onun sünnəsindən yapışmağa sövq etmiş, sonra da bununla kifayətlənməyib demişdir: ***“... və məndən sonra gələn raşidi xəlifələrin sünnəsindən yapışın.”***

Odur ki, öz əqidəmizi, ibadətimizi, əxlaqımızı və xasiyyətimizi dərk etmək istəyiriksə daima bu əsas ətrafında danışmalıyıq. Həmçinin müsəlman üçün zəruri olan bütün bu məsələlərin başa düşülməsi üçün də sələfi salehin mənhəcinə qayıtmaq labüddür. Belə olan təqdirdə onun nicat tapan firqədən olması həyata keçir.

Əvvəldə qeyd etdiyimiz ayənin nəyə dəlalət etdiyinə, raşidi xəlifələrin sünnəsi barədə olan hədi-

sə və ümmətin firqələrə bölünməsi barədə olan hədisə diqqət yetirmədiklərinə görə həm qədim, həm də müasir firqələr elə buradan yollarını azdılar. Onlardan əvvəlkilərin Allahın kitabından, Peyğəmbərin sünnəsindən və sələfi salehin mənhəcindən sapdıqları kimi onların da sapmaları çox təbii bir iş idi.

Haqq yolundan sapanlardan biri də keçmiş və müasir xavariclərdir.

Həm keçmişdə, həm də indiki zamanda baş verən təkfir fitnəsinin əsli tək bir ayədir ki, daima onun ətrafında danışırlar. Bu da uca Allahın **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir."**[1] ayəsidir. Onlar bu ayəni onun dərin mənalarına varmadan götürür və doğru dürüst dərk etmədən də onu sitat gətirirlər.

Biz isə bilirik ki, bu ayəti kərim təkrarlanmış və sonluğu da üç ləfzlə tamamlanaraq gəlmişdir. Ayələrin sonluqları belədir: **"...məhz onlar kafirlərdir"**, **"...məhz onlar zalımlardır"**[2], **"...məhz onlar fasiqlərdir"**[3].

Bu üç ayədən yalnız birincisini, **"...məhz onlar kafirlərdir"** ləfzi ilə gələnini dəlil kimi götürənlərin tam avamlıqlarındandır ki, onlar ən azından

---

[1] əl-Maidə, 44.
[2] əl-Maidə, 45.
[3] əl-Maidə, 47.

**"Küfr"** ləfzi ilə gələn istər Qurandan, istər də Sünnədən olan bəzi şəri dəlilləri başa düşməmişlər. Beləliklə də onlar heç nəyə baxmadan ayənin dindən çıxma mənasını verdiyini və küfrə düşən şəxslə (müsəlmanla) İslam ümmətindən xaric olan yəhudilərdən, nəsranilərdən və digər ümmətlərdən olan müşriklər arasında heç bir fərqin olmadığını qəbul etmişlər.

Əslində isə "küfr" ləfzi Kitab və Sünnədə daima onların ətrafında danışdıqları və bu təhlükəli və səhv fəhmə təhrik etdikləri mənanı vermir.

Yalnız bir mənaya dəlalət etmədiyinə görə **"kafirlərdir"** ləfzi digər iki, **"zalımlardır"** və **"fasiqlərdir"** ləfzləri ilə eynidir. Əgər kimsə zalım və ya fasiq sifəti ilə vəsf olunmuşsa bu onun hökmən öz dinindən dönməsinin gərəkli olduğunu göstərmir. Eləcə də kim kafir sifəti ilə vəsf olunsa bu da (əvvəlki iki sifətlə) tamamilə eynidir.

Bu bir ləfzin müxtəlif mənalarda gəlməsinə öncə ərəb dili, sonra isə ərəblərin (Qurani Kərimin) dilində gələn şəriət dəlalət edir.

Elə bu səbəbdən də – istər hakimlər, istər də onların tabeçiliyində olanlar (adi insanlar) olsun – müsəlmanlar barəsində hökm çıxartmağa qatışan hər bir şəxsə, Kitab və Sünnə sahəsində geniş elmə məxsus olması və sələfi salehin mənhəci üzərində olması vacibdir. Kitab və Sünnəni isə ərəb dilini və

onun ədəbiyyatlarını doğru dürüst şəkildə dərk etmədən başa düşmək mümkün deyildir.

Odur ki, əgər ərəb dilini dərk etməkdə elm tələbəsində naqislik olarsa, bu naqisliyi doldurmaqda ona kömək edəcək şey onun özündən öncə yaşamış imamların, alimlərin, xüsusən də xeyirli olmaları barəsində şəhadət verilən o üç nəslin (səhabələrin, tabiinlərin və ətbau-tabiinlərin) fəhminə qayıtmasıdır.

İndi isə **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir"** ayəsinə qayıdaq. Ayədəki küfrdə nəzərdə tutulan şey nədir? Bu ümmətdən çıxmaq deməkdir, yoxsa başqa bir şeydir?

Deyə bilərəm ki, bu ayəni başa düşmək üçün hökmən diqqətli olmaq lazımdır. Çünki bu "əməli küfr" mənasını da verə bilər. Bu isə bəzi İslam hökmlərindən yalnız əməldə çıxmaqdır.

Bu fəhmdə isə bizə təfsir elminin yeganə imamı olmasında – zəlalətə düşən firqələr istisna olmaqla – bütün müsəlmanların yekdil icma etdikləri, Quranın tərcümanı və ümmətin alimi sayılan Abdullah bin Abbas ﷺ kömək edə bilər.

Sanki o zaman İbn Abbasın ﷺ qulağına da tamamilə bizim bu gün eşitdiklərimiz çatmışdır ki, bəzi insanlar bu ayəni təfsilatsız olaraq ötəri başa düşürlər. Odur ki o (ayədəki "küfr" sözü barəsində) belə demişdir: "Bu heç də sizin başa düşdüyü-

nüz "küfr" deyildir"; "Şübhəsiz ki bu, (insanı) İslam ümmətindən (dindən) çıxaran küfr deyildir"; "Bu küfrsüz küfrdür".

Ola bilsin ki İbn Abbas ﵄ bu sözləri ilə möminlərin əmiri Əliyə ﵁ qarşı çıxan, sonra da bunun nəticəsi olaraq möminlərin qanlarını tökən və müşriklərə qarşı etmədiklərini müsəlmanlara qarşı edən xavaricləri qəsd edir. Odur ki İbn Abbas ﵄ demişdir: "Bu heç də onların dedikləri və ya güman etdikləri kimi deyildir. Şübhəsiz ki bu küfrsüz küfrdür".[1]

Bu İbn Abbasın ﵄ ayənin təfsirində olan qısa və açıq-aydın cavabıdır ki, öncə qeyd etdiyim dəlillərdən də elə yalnız bu hökm başa düşülür.[2]

---

[1] Bax: Şeyx əl-Albaninin bu əsərlərin təxricinə, 6-cı cild, səh. 109; 2552-ci hədis.

[2] Şeyx İbn Useymin əl-Albaninin sözünü izah edərək demişdir: "Şeyx əl-Albani İbn Abbasdan ﵄ gələn bu əsəri dəlil olaraq gətirmişdir. İsnadında bəzi şeylər olmasına baxmayaraq bu əsəri digər alimlər də məqbul hesab etmişlər. Çünki əksər dəlillər bunun həqiqi olduğunu təsdiq edir. Budur Peyğəmbər ﷺ demişdir: ***"Müsəlmanı söymək günah, onunla vuruşmaq isə küfrdür"***. Hərçənd ki, müsəlmanla vuruşmaq insanı dindən çıxartmır. Çünki uca Allah buyurur: "**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin."Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq**

**edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər! Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!"** (əl-Hucurat, 9-10).

Ancaq təkfir fitnəsinə düçar olanlar bunlarla razılaşmadıqları üçün "Bu əsər məqbul deyildir və İbn Abbasdan da səhih varid olmamışdır" deməyə başladılar. Onlara belə deyilir: "Necə olur ki, səhih deyil. Axı sizdən də böyüklər, sizdən də fəzilətlilər və nəhayət hədis elmində sizdən də elmlilər bunu məqbul hesab etmişlər. Siz isə "bunu qəbul etmirik" deyirsiniz".

Bizə yetər ki, bu əsəri böyük alimlərdən şeyxul-İslam İbn Teymiyyə, İbn əl-Qayyim və başqaları qəbul etmiş, onun haqqında danışmış və onu bir-birlərinə nəql etmişlər. Odur ki, əsər səhihdir.

Daha sonra fərz edək ki, əsər sizin dediyiniz kimi İbn Abbasdan səhih varid olmamışdır. Axı bizim əlimizdə başqa dəlillər də vardır ki, bu dəlillər onu göstərir ki, "küfr" sözü deyildikdə ola bilər ki insanı dindən çıxardan küfr nəzərdə tutulmur. Öncə qeyd etdiyimiz ayədə və indi qeyd edəcəyimiz hədisdə olduğu kimi. Hədisdə Peyğəmbər ﷺ demişdir: ***"İki şey vardır ki bunların insanlarda olması küfrdür: Əsil-nəcabətə tənə vurmaq və ölü üçün fəryad etmək"***. Heç bir problem olmadan (deyə bilərik ki), bu sifətlər (sahibini) dindən çıxartmır.

Lakin elm ehtiyatının kasadlığı və ümumi şəriət qaydalarını az şəkildə qavramaq bu cür zəlalətin başlıca səbəbi oldu. Eynilə bunu şeyx əl-Albani sözünün əvvəlində demişdir.

Daha sonra başqa bir şeyi də əlavə edək ki, pis məqsəd (insanı daima) pis fəhmə aparıb çıxarır. Çünki insan bir şey istədiyi zaman onun fəhmi istədiyi şeyə tərəf yönəlir və bundan dolayı da dəlilləri təhrif edir. Alimlər arasında məşhur bir qayda vardır. Onlar belə deyirlər: "(Dəlili bil sonra etiqad et), etiqad edib sonra dəlil axtarma, yoxsa azarsan".

Beləliklə onların zəlalətə düşmə səbəbləri üçdür:

Birinci: Şəriət elminin kasadlığı;

Şübhəsiz ki, "küfr" sözü Quran və hədislərdən olan bir çox başqa dəlillərdə də zikr olunmuşdur. Odur ki, "küfr" sözü bu dəlillərin hamısında heç də millətdən (dindən) çıxmaq mənasında gəlmir.[1] Bu qəbildən olan hədislərdən biri də Buxari və Muslimdə gələn Abdullah bin Məsudun ﵁ rəvayət etdiyi məşhur hədisdir. İbn Məsud ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: ***"Müsəlmanı söymək fasiqlik, onunla vuruşmaq isə küfrdür"***. Buradakı küfr günah mənasındadır. O günah ki, insanı

---

İkinci: Şəriət qaydalarını zəif qavramaq;

Üçüncü: Pis məqsəd üzərində qurulmuş pis fəhm."

[1] Şeyx İbn Useymin bəzilərinin sualına cavab olaraq belə demişdir: "Bəzilərinin fəhmi pis olduğundan şeyxul-İslam İbn Teymiyyənin "küfr sözü deyilərsə burada böyük küfr nəzərdə tutulur" sözünü dəlil gətirərək **"...məhz onlar kafirlərdir"** ayəsinin təkfirə dəlalət etməsini deyirlər. Hərçənd ki, ayədə məhz həmin küfr yoxdur.

Şeyxul-İslam İbn Teymiyyədən gələn səhih məlumat odur ki, o, müəyyənliyi bildirən **(ال)** söz önlüyü ilə gələn "küfr" sözü ilə, qeyri müəyyən olan "küfr " sözü arasında fərq qoyur.

O ki qaldı vəsfə, **"هؤلاء كافرون"** və ya **"هؤلاء الكافرون"** şəklində deyilə bilər. Bu da onların dindən çıxartmayan küfrlə vəsf olunmalarına əsasəndir. Odur ki, əməlin vəsfi ilə, əməli edən şəxsin vəsfi arasında böyük fərq vardır.

Odur ki, öncə qeyd edilənlərə əsasən bu ayənin təfsirində deyə bilərik ki, Allahın nazil etdiyindən qeyrisi ilə hökm vermək (insanı) dindən çıxardan "küfr" deyildir, o əməli küfrdür. Çünki onunla hökm verən şəxs doğru yoldan çıxır.

Bu məsələdə başqası tərəfindən qoyulmuş qanunları götürüb öz dövlətində onunla hökm verən şəxslə özündən qanun qoyub onu tətbiq edən şəxs arasında heç bir fərq yoxdur. Əsas odur ki, qoyulan bu qanun səmavi qanuna müxalif olur ya yox?"

itaətdən çıxardır. Lakin buna baxmayaraq açıqlamaqda insanların ən fəsahətlisi olan Peyğəmbər ﷺ (müsəlmanları) hədələməkdə mübaliğə edərək belə dedi: ***"... onu öldürmək isə küfrdür"***.

Başqa bir tərəfdən, hədisin ***"Müsəlmanı söymək fasiqlikdir..."*** hissəsindəki "fasiqlikdir" sözünü **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir"** ayəsində zikr olunan fasiqlik sözünün mənası kimi izah edə bilərikmi?

Bunun cavabı belədir: Bu, insanı dindən çıxardan mənasını verən "küfr" sözünün sinonimi sayılan "fasiqlik" də ola bilər, həmçinin, insanı dindən çıxardan mənasını verməyən, yəni Quranın tərcümanı sayılan İbn Abbasın رضي الله عنه dediyi kimi "Bu küfrsüz küfrdür" mənasını verən, "küfr" sözünün sinonimi sayılan "fasiqlik" də ola bilər.

Bu hədis təsdiq edir ki, "küfr" sözü başqa mənada da ola bilər. Çünki uca Allah demişdir: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun."** Uca Allah bu ayədə haqlı olan mömin dəstəyə qarşı vuruşan təcavüzkar dəstəni zikr etmiş və bununla bərabər təcavüzkar dəstəyə küfr hökmünü verməmişdir. Hərçənd ki, hədisdə ***"... onunla vuruşmaq isə küfrdür"*** deyilir.

Deməli, müsəlmanla vuruşmaq (sahibini) kafir etməyən küfrdür. Əvvəlki ayənin təfsirində İbn Abbas رضي الله عنهما elə tamamilə bu cür demişdir.

Beləliklə müsəlmanın müsəlmanla vuruşması təcavüzkarlıq, düşmənçilik, günah və küfrdür. Lakin küfr dedikdə bu "əməli küfr" də ola bilər, "etiqadı küfr" də ola bilər.

Elə buradan da bu dəqiq təfsilat meydana çıxdı. O təfsilat ki, onun açıqlamasını İmam şeyxul-İslam İbn Teymiyyə رحمه الله mənimsəmiş və onu şərh etmişdir. Bu açıqlamanı ondan sonra onun sadiq tələbəsi olan İbn Qayyim əl-Cəuziyyə də mənimsəmişdir. Belə ki, küfrü bu cür qisimlərə ayırmaq məsələsində diqqətli olmaqda və bunun ətrafında danışmaqda onların böyük xidməti vardır. Küfrü bu cür qisimlərə ayırmağın təməlini isə qısa və mənalı sözü ilə Quranın tərcümanı olan İbn Abbas رضي الله عنهما qoymuşdur. İbn Teymiyyə və onun tələbəsi və dostu olan İbn Qayyim əl-Cəuziyyə رحمه الله daima "etiqadı küfrlə" "əməli küfr" arasında fərq qoymağın zəruriliyi ətrafında danışmışlar. Əgər bu fərq olmasa müsəlman olan şəxs özü də bilmədən onu müsəlman camaatından çıxardan bir fitnəyə düşər. O fitnə ki, ona keçmişdə Xavariclər, indiki dövrdə isə onların bəzi quyruqları düşmüşdür.

Yekun söz odur ki, Peyğəmbərin ﷺ ***"... onunla vuruşmaq isə küfrdür"*** sözü qətiyyən (insanı) dindən çıxardan (küfr) mənasını vermir.

Bu barədə isə hədislər həddən artıq çoxdur. Bu hədislərin hamısı öncə qeyd etdiyimiz ayəni başa düşməkdə öz zəif fəhmlərində durub dayanan və həmin ayənin təfsirinin "etiqadı küfr" olmasının vacibliyini görən xavariclər və onların quyruqları üçün qaneedici dəlildir.

Hal hazırda isə bizə öncə qeyd etdiyimiz hədis kifayət edər. Çünki bu hədis kəsərli dəlildir ki, müsəlmanın müsəlman qardaşı ilə vuruşması etiqadı küfr deyil, əməli küfr mənasındadır.

Əgər biz təkfir camaatına – və ya onlardan törəyənlərə – və onların hakimlər – xüsusən də hakimlərin bayrağı altında yaşayıb onların hökmləri və vəzifələri altında nizamlananlar – barəsində dedikləri küfr və riddəyə (dindən çıxıb mürtəd olmağa) qayıtsaq görərik ki, bütün bunlar onların iyrənc nəzəriyyələri üzərində qurulmuşdur. Bu iyrənc nəzəriyyənin özü də "Onlar günah işlər gördülər və buna görə də təkfir olunurlar" üzərində qurulmuşdur.[1]

Həmçinin xatırlanması və hekayət olunması fayda verən əməllərdən biri də odur ki, mən təkfir camaatından olan bəzi insanlarla görüşdüm və sonra da uca Allah onlara hidayət verdi.

---

[1] Bu yerdə şeyx İbn Useymin "Allahdan salamatlıq istəyirik" demişdir.

Mən onlara dedim: “Budur siz bəzi hakimləri təkfir edirsiniz. Bəs məscidlərin imamlarını, xətiblərini, müəzzinlərini və xidmətçilərini nə üçün təkfir edirsiniz? Nə üçün məktəblərdə və digər yerlərdə şəriət elmi verən müəllimləri də təkfir edirsiniz?”

Onlar belə dedilər: “Çünki onlar Allahın nazil etdiyindən qeyrisi ilə hökm verən hakimlərin hökmünə razılıq göstərirlər.”

Mən onlara dedim: “Əgər Allahın nazil etdiyindən qeyri hökmə olan bu razılıq qəlbi razılıqdırsa, onda “əməli küfr” “etiqadı küfrə” çevrilir. Şübhə də yoxdur ki, Allahın nazil etdiyindən qeyri hökmün müasir dövr üçün münasib olduğunu və Kitab və Sünnədə gələn şəriət hökmlərinin isə münasib olmadığını hesab edib onu etiqad edərək onunla hökm verən istənilən hakimin küfrü yalnız əməli küfr deyil, həm də etiqadı küfrdür. Kim də onun razılıq göstərdiyi və etiqad etdiyi ilə razılaşarsa onun hökmündədir.[1]”

Sonra mən onlara dedim: “Birincisi odur ki, siz kafir qərb (dövlətlərinin) qanunları ilə – və ya əksər qanunları ilə – hökm verən hər bir hakimin hökmünü verə bilmirsiniz. (Siz yalnız) “Allahın nazil etdiyindən qeyrisi ilə hökm vermək olarmı?!”

---

[1] Şeyx əl-Albani sözünə izahat verərək demişdir: “Bununla belə onlar bizə – batilcəsinə – əsrin murciələri ləqəbini verirlər.”

deyə soruşulduğu zaman “Bu qanunlarla hökm vermək bu əsr üçün düzgün və yararlıdır, İslam qanunları ilə hökm vermək isə düzgün deyildir!” cavabını verənlərin hökmünü verə bilərsiniz. Çünki onlar bu cür cavab verərlərsə, şübhə yoxdur ki, əsl kafir olurlar.

İndi isə tabeçilikdə olanlara keçək. Onların arasında alimlər, saleh insanlar və başqaları da vardır. Elə isə, sadəcə əhatə olunduqları hökmün altında yaşadıqlarına görə onların əleyhinə necə küfr hökmünü verirsiniz? Axı siz də onların əhatə olunduqları həmin hökmün altında yaşayırsınız. Amma siz elan edərək bildirirsiniz ki, onlar kafirdirlər, mürtəddirlər və Allahın nazil etdiyi ilə hökm vermək vacibdir. Sonra da özünüz üçün bəraət qazandıraraq deyirsiniz ki, “Şəriət hökmünə müxalif bir əməl edən kimi həmin adamın dərhal dindən çıxması hökmünü vermək heç də labüd deyildir!”

Sizdən qeyriləri də elə eynilə bu sözləri deyirlər. Amma siz onlara – haqsız olaraq – təkfir və riddə (dindən çıxmaq) hökmünü də əlavə edirsiniz.

Onların xətalarını və azğınlıqlarını bəyan edən məsələlərdən biri də odur ki, onlara belə deyilir: “Lə iləhə illəllah və Muhəmmədən rasulullah şəhadətini gətirən – ola bilsin namaz da qılır – müsəlmana nə vaxt dindən çıxması hökmü verilir?”

Bir dəfə kifayət edərmi? Yoxsa onun dindən çıxdığı elan olunmalıdır?

Şübhəsiz ki onlar nə bunun cavabını biləcəklər, nə də ki, düzgün yola yönələcəklər. Odur ki, onlara belə bir misal çəkmək zərurətindəyik. Məsələn: Bir qazı öz adəti və nizamı ilə daima şəriətlə hökm verir. Lakin o bir hökmdə yanılır və şəriətə müxalif bir hökm verir. Yəni: Haqqı zalıma verib məzlumu öz haqqından məhrum edir. Şübhə yoxdur ki, həmin qazı (bu dəfə) Allahın nazil etdiyindən qeyrisi ilə hökm verdi. Məgər siz onun (insanı) dindən çıxardan küfrü etdiyini deyəcəksiniz?

Əlbəttə ki, onlar deyəcəklər ki, "Xeyir (o insanı dindən çıxardan küfr etməmişdir). Çünki bu əməl ondan bir dəfə meydana gəldi."

Elə isə (biz onlara belə) deyirik: "Həmin hökm və ya başqa bir hökm meydana çıxsa və bu dəfə də həmin qazı şəriətə müxalif olsa (onda necə), o (insanı dindən çıxardan) küfr etmiş olurmu?" Sonra bu sualı onlara təkrarlayaraq deyirik ki, bəs üçüncü, dördüncü dəfə etsə necə? Siz nə vaxt həmin şəxsin (insanı dindən çıxardan) küfr etdiyini deyəcəksiniz?! Onlar heç vaxt həmin qazının şəriətə müxalif verdiyi hökmlərinin miqdarına hədd qoya bilməyəcəklər və bu səbəbdən də onu təkfir etməyəcəklər.

Amma onlar tamamən bunun əksini deyə bilərlər. Yəni, bilinsə ki, həmin qazı birinci verdiyi hökmdə Allahın hökmündən qeyri hökmü halal sayaraq onu yaxşı hesab edir və şəriət hökmünü də pis hesab edir, onda həmin saat – hətta birinci dəfədən belə – ona dindən çıxmaq hökmünü vermək düzgün sayılır.

Bunun da əksi belədir: "Əgər həmin qazının onlarla müxtəlif məsələlərdə şəriətə müxalif hökm verdiyini görsək və sonra da ondan soruşsaq ki, "nə üçün uca Allahın nazil etdiyindən qeyrisi ilə hökm verirsən" və o da cavabında "özüm üçün qorxdum, yaxud rüşvətə görə belə etdim" deyərsə, bu birincidən daha pis sayılar. Amma bununla bərabər biz onun qəlbindəki – Allahın nazil etdiyi ilə hökm verməyi düzgün hesab etmədiyi – fikrini bilməyincə onun kafir olduğunu deyə bilmərik. Yalnız onun bu fikrini bildikdən sonra "onun küfrü (insanı) dindən çıxardan küfrdür və o kafirdir" deyə bilərik."

Yekun söz belədir: Mütləq bilmək lazımdır ki, fasiqlik və zülm kimi küfr də iki qismə bölünür:

1. İnsanı dindən çıxardan küfr, fasiqlik və zülm. Bunların hamısı qəlbdə halal hesab edilməyə qayıdır.

2. İnsanı dindən çıxartmayan küfr, fasiqlik və zülm. Bunlar isə əməldə halal hesab edilməyə qayıdır.

Odur ki, bütün günahlar – xüsusən də bu dövrdə yayılmış əməldə halal hesab edilən faiz, zina, sərxoşedici içki içmək və qeyriləri – əməli küfrdəndir. Elə buna görə də biz bəzi günahlara uğrayan günahkarları – həmin günahları edərək onları əməldə halal hesab edən kimi – təkfir edə bilmərik. Onların qəlblərindəki – Allahın və Onun rəsulunun haram etdiklərini etiqadla haram görməmək – fikirlərinin bizə yəqinliklə aşkar olması isə müstəsnadır. Əgər bilsək ki, onlar qəlbdə də bu cür müxalifdirlər onda hökm verə bilərik ki, onlar (insanı) dindən çıxardan küfr etmişlər.

Əgər onların qəlblərində olanı bilməsək onlara küfr hökmü verməyə bizim heç bir əsasımız yoxdur. Çünki biz Peyğəmbərin ﷺ ***"Bir kişi öz qardaşına "ey kafir" deyərsə, bu o ikisindən birinə qayıdır"*** sözündəki təhdidin altına düşməkdən qorxuruq.

Bu cür mənada gələn hədislər lap çoxdur. Onlardan böyük mənaya dəlalət edən bir hədisi qeyd edək. Bu, (rəvayət) müşriklərdən biri ilə vuruşan səhabənin qissəsində gəlmişdir. Həmin müşrik müsəlman səhabənin qılıncının zərbəsi altında olduğunu gördükdə "Əşhədu ən lə iləhə illəllah" dedi. Lakin səhabə buna fikir verməyib müşriki öldürdü. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda o etdiyi əmələ görə səhabəyə öz etirazını şiddətli şəkildə ifadə

etdi. Səhabə isə (öz növbəsində) özünə bəraət qazandırdı ki, müşrik şəhadət kəlməsini yalnız ölümdən qorxduğu üçün demişdi. Peyğəmbərin ﷺ cavabı isə belə oldu: ***"Məgər sən onun qəlbini yarmışdın?!"***[1]

Deməli etiqadı küfrün bir baş əməllə[2] heç bir başlıca əlaqəsi yoxdur. Onun ən böyük əlaqəsi yalnız qəlblədir. Biz də fasiqin, günahkarın, oğrunun, zinakarın, sələmlə məşğul olanın və bunlara bənzəyənlərin qəlblərində olanları bilə bilmərik. Biz yalnız onlar qəlblərində olanları dilləri ilə ifadə etdikdən sonra bunu bilərik. Onların əməllərinə gəlincə, onlar şəriətə əməldə müxalif olmuşlar.

Odur ki, biz həmin şəxslərə "Sən müxalif oldun, sən fasiqlik etdin, sən günah etdin" deyirik. Amma onlara "Sən küfr etdin və öz dinindən çıxdın" demirik. O vaxta qədər ki, dindən çıxmalarına hökm vermək üçün Allah qarşısında əlimizdə bəhanə olan bir şey onlardan bizə aşkar olsun. Bundan sonra isə onlara İslamda hamıya bəlli olan

---

[1] Bu hədisi Buxari və Muslim Usəmə bin Zeyddən ﷺ rəvayət etmişdir.

[2] Şeyx əl-Albani izah edərək demişdir: "Elə əməllər də vardır ki, onu edən şəxs birbaşa etiqadı küfr etmiş olur. Çünki həmin əməl qətiyyətlə və yəqinliklə onu edən şəxsin küfrünü göstərir. Belə ki, bu hərəkət həmin şəxsin dilindəki küfrünü də ifadə edir. Məsələn: Qəsdən və bilərəkdən Quranı tapdalamaq".

bir hökm gəlir. Bu da Peyğəmbərin ﷺ ***“Kim dinini dəyişərsə, onu öldürün”*** sözüdür.

Sonra mən müsəlman hakimlərinin təkfiri ətrafında danışan həmin şəxslərə belə dedim – və belə deməkdə də davam edirəm: “Fərz edin ki, həmin hakimlər dindən çıxan kafirdirlər. Həmçinin fərz edin ki, onlardan daha yüksək (təbəqədə) olan bir hakim də var. Elə isə – bu halda – yüksək təbəqədə olan bu hakimə onlar barəsində hökm tətbiq etmək vacibdir.

Siz indi əməli tərəfdən nə fayda qazanacaqsınız, əgər biz həmin hakimlərin dindən çıxan kafirlər olmasında – təsəvvür edin ki – sizinlə razılaşsaq?! Siz bununla nə edə biləcəksiniz?”

Əgər onlar “dostluq və düşmənçilik” deyə cavab versələr biz onlara belə deyirik: “Dostluq və düşmənçilik – həm qəlbi, həm də əməli baxımdan – dostluq və düşmənçilik münasibəti göstərməklə bağlıdır və bacarığa uyğun olur. Odur ki, dostluq və düşmənçiliyin olmasında təkfirin və dindən çıxmağın elan edilməsi şərt deyildir. Əksinə, dostluq və düşmənçilik bidətçidə, asidə və zalımda da olur.”

Sonra onlara belə deyirəm: “Budur kafirlər artıq müsəlman diyarlarından bir neçə yerləri işğal ediblər və biz də çox təəssüf ki, yəhudilərin Fələstini işğal etməsinə məruz qalmışıq. Yaxşı, biz və siz (indi) onlara qarşı nə edə bilərik?! Nə qədər ki

– təkbaşına – kafir zənn etdiyiniz həmin hakimlə-rə qarşısınız[1]?!

---

[1] Möhtərəm şeyximiz İbn Useymin ﷺ demişdir: “Bu çox gözəl söz-dür. Yəni, müsəlman başçılarına kafir hökmünü verənlər bu hökmü verməklə nə fayda qazanırlar? Bununla onları aradan qaldırmağı bacarırlarmı? Əlbəttə ki, bacarmırlar. Budur, əlli ilə yaxındır ki yəhudilər Fələstini işğal ediblər. Amma bununla bərabər ərəbindən tutmuş əcəmisinə qədər bütün İslam ümməti onları həmin yerlərdən qova bilmirlər. Elə isə, biz hansı bir vəchlə acı və kəskin dilimizi bizə başçılıq edən rəhbərlərə qarşı yönəldirik? Axı biz bilirik ki, onları aradan qaldıra bilməyəcəyik və qanlar töküləcək, mallar müsadirə olunacaq, bəlkə də namuslar tapdalanacaq və heç bir nəticəyə də nail olmayacağıq.

Elə isə bunun faydası nədir? Əgər insan özü ilə rəbbi arasında həmin hakimlərdən bəzilərinin dindən çıxmış kafir olduğunu etiqad edirsə, bunu elan etməyin və yaymağın fitnə qaldırmaqdan başqa heç bir faydası yoxdur. Odur ki, şeyx əl-Albaninin bu sözü çox gözəldir.

Lakin biz bir məsələdə ona müxalifik. Belə ki o, əməlin halal olduğunu etiqad etməyincə həmin (hakimlərə) küfr hökmünü vermir. Bu məsələnin müzakirəyə ehtiyacı vardır. Çünki biz deyirik ki, Allahın hökmündən qeyri hökmün Allahın hökmündən əlverişli olduğunu etiqad edə-edə Allahın hökmü ilə hökm verən şəxs kafirdir və – Allahın hökmü ilə hökm versə də belə – onun küfrü əqidə küfrüdür.”

(a) Şeyx əl-Albani Useyminin bu sözünə izahat gətirərək demişdir: “Bu müxalifliyin ehtimal tərəfi mənə aydın olmadı. Axı mən də belə deyirəm: “Əgər hər hansı bir şəxs – hakim olmasa da belə – İslamdan qeyri hökmü İslam hökmündən əlverişli sayarsa – hətta əməldə İslamla hökm versə də belə – o kafirdir”. Deməli burada heç bir ixtilaf yoxdur. Çünki əslində qayıdış qəlbdə olanadır. Amma bizim sözümüz əmələ aiddir.

Zənnimcə şəriətə müxalif olan bir qanunu tətbiq edərək onunla Allahın bəndələri arasında hökm verən elə bir şəxs yoxdur ki, o bu qanunu halal görməsin və bunun şəriət qanunlarından xeyirli olduğunu etiqad etməsin. Odur ki, həmin şəxs kafirdir. Elə bəlli olan da budur. Yoxsa onu bu cür hökmü tətbiq etməyə vadar edən nədir?

Ola bilər ki, onu vadar edən şey (şəriətə müxalif olan qanunları) tətbiq etmədikdə özündən güclü olan insanlardan qorxmasıdır. Odur

Kaş ki siz bu məsələni bir kənara qoyub, bünövrəsində müsəlman dövlətinin quruluşu duran bir nizam qurmağa başlayardınız. Bu isə Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaqla olur. O sünnə ki, Peyğəmbər ﷺ öz səhabələrini onun üzərində tərbiyə etmiş və onları onun qayda qanunları və əsası üzərində yetişdirmişdir.

Biz dəfələrlə xatırlayır və dəfələrlə təsdiqləyirik ki, İslam hökmünü qaytarmaq üçün hər bir müsəlman camaatı yalnız İslam diyarında deyil, əksinə bütün diyarlarda haqqa əməl etməlidir. Bu isə üz növbəsində uca Allahın **"Müşriklərin xoşuna gəlməsə də, *İslam* dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur."**[1] kəlamını yerinə yetirmək üçündür. Peyğəmbərin ﷺ müjdə verən bəzi hədislərində gəlmişdir ki, bu ayə gələcəkdə həyata keçəcəkdir.

---

ki, (onun etdiyi əməl) onlara yaltaqlanmaq üçündür. Belə olduğu təqdirdə deyə bilərik ki, həmin şəxs (etdiyi) digər günahlarda da yaltaq kimidir.

Bu fəsildə ən mühüm məsələ rəhbərlərə qarşı çıxmaq nəticəsini verən təkfir məsələsidir. Elə problem də budur. Bəli, əgər hakimin etdiyi açıq aydın küfr olsa idi, bizim əlimizdə də bu əməlin küfr olmasına dair Allah tərəfindən dəlil olsa idi və əlimizdə müsəlmanların üzərində rəhbərlik edən hər bir kafir hakimi dəyişdirməyə qüvvə olsa idi buna icazə verilərdi. Lakin bu məsələ heç də bu sifətdə deyildir və heç də asan deyildir!!."

[1] əs-Saff, 9.

Bu Quran ayəsini və İlahi vədi həyata keçirməyə imkan əldə etmək üçün müsəlmanlara açıq-aydın və parlaq bir yol lazımdır. Məgər həmin yol hakimlərə üsyan elan etməklə olur? O hakimlər ki, (təkfirçilər) onların dindən çıxardan küfr etdiklərini zənn edirlər. Sonra da onlar etdikləri bu səhv və yanlış zənnə baxmayaraq, heç bir şey edə bilmirlər.[1]

---

[1] Möhtərəm şeyximiz İbn Useymin daha bir şübhə barəsində soruşuldu: "Əksər gənclərin şüurlarında möhkəmlənərək onlarda (rəhbərlərə) qarşı çıxmaq məsələsini oyadan bir şübhə vardır. Həmin şübhə belədir: "Allahın hökmünü dəyişdirən həmin hakimlər Allahın nazil etdiyi ilə hökm verməyib özlərindən qanunlar qoydular və bununla da həmin gənclər onların dindən çıxıb kafir olmalarının hökmünü verdilər. Sonra da buna əsaslanaraq dedilər ki, nə qədər ki onlar kafirdirlər onlara qarşı vuruşmaq vacibdir. Zəifliyə isə fikir verilmir. Çünki zəiflik artıq – onların dediyinə görə qılınc ayəsi ilə – nəsx olunmuşdur (hökmü silinmişdir)!!! Uca Allah buyurur: **"Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir."** (ət-Tovbə, 5). Odur ki, zəiflik mərhələsinə əməl etməyə imkan qalmır!! O mərhələ ki, müsəlmanların Məkkədə yaşadıqları mərhələ idi."

Möhtərəm şeyximiz bu şübhəyə cavab verərək demişdir: "İlk növbədə bilməliyik ki, riddə (dindən çıxmaq) vəsfi onlara tətbiq olunur ya yox?

Bunun üçün də həmin sözün və ya əməlin riddə olmasına dəlalət edən dəlilləri bilmək lazımdır. Sonra isə bu müəyyən bir şəxsə tətbiq olunmalıdır ki, onda şübhənin olub olmadığını bilək?

Yəni: Ola bilsin ki, dəlil həmin əməlin və həmin sözün küfr olmasına dəlalət etsin, amma küfr hökmünü bu müəyyən şəxsə tətbiq etməyə mane olan amil də ola bilər.

(Küfr hökmünü verməyə) mane olan amillər isə çoxdur. Zənn – yəni, elmsizlik – və ya üstün gəlmək bu cür amillərdəndir.

Öz ailəsinə "Mən ölsəm məni yandırıb tozumu dənizə səpin. Çünki Allah məni yığmağı bacarsa mənə aləmlərdən heç kəsə vermədiyi bir əzabı verəcəkdir" deyən kişinin hədisinə nəzər salaq. Bu hədisi Buxari və Muslim Əbu Səid əl-Xudridən ﵁ rəvayət etmişdir. Bu kişinin əqidəsinin zahiri küfr və şəkkdir. Lakin uca Allah onu yığıb danışdırdıqda o "Ey Rəbbim! Mən səndən qorxduğum üçün belə etdim" dedi və ya buna bənzər bir söz dedi. Uca Allah da onu bağışladı. Odur ki, həmin əməl kişidən yozma nəticəsində meydana gəlmişdi. (Yəni, bu əməl məqsədli və qərəzli deyildi).

Sevinci ona üstün gələn zaman öz dəvəsindən tutub "Allahım! Sən mənim dulum, mən də Sənin rəbbinəm!!"- deyən kişinin hədisi də yuxarıdakı hədis kimidir. Bu hədisi Buxari və Muslim Ənəs bin Malikdən ﵁ rəvayət etmişdir. (Kişinin dediyi bu söz) küfr sözüdür. Lakin o bununla kafir olmur. Çünki sevincin şiddəti həmin kişiyə üstün gəldi və o bundan dolayı xəta etdi. Halbuki o, "Allahım! Sən mənim rəbbim, mən də Sənin qulunam" demək istəyirdi. Amma çaşıb "Allahım! Sən mənim qulum, mən də sənin rəbbinəm" dedi!

Eləcə də məcbur edilən şəxs küfr etməyə məcbur edilir və o küfr sözü deyir və ya küfr əməl edir. Lakin bu şəxs Quran ayəsinə görə kafir olmur. Çünki o bunu qəsdən və öz ixtiyarı ilə etməmişdir.

Biz bilirik ki, həmin hakimlər kəbin, miras və bu kimi bunlara bənzər şəxsi məsələlərdə – məzhəblərdən asılı olmayaraq – Quranın dəlalət etdiyi hökmlərlə hökm verirlər.

Amma onlar insanlar arasında verdikləri hökmlərdə fərqlənirlər... Bu cür hakimlərdə bəzi şübhələr vardır ki, onu da onlara bəzi pis alimlər salırlar. Onlar deyirlər ki, Peyğəmbər ﷺ belə demişdir: ***"Siz dünya işlərinizdə daha elmlisiniz"***. Bu isə ümumi olaraq gəlmişdir. Odur ki, dünyamızı yaxşı edən hər bir şeydə biz azadıq. Axı Peyğəmbər ﷺ ***"Siz dünya işlərinizdə daha elmlisiniz"*** demişdir!!. Şübhəsiz ki, bu bir şübhədir. Məgər bu onlara əsas verir ki, hökm kəsməkdə, sərxoşedici içkini qadağan etməkdə və buna bənzər şeylərdə İslam qanunlarından kənara çıxsınlar?

Fərz edək ki, bəzi iqtisadi sahələrdə onlarda şübhə vardır. Doğrusu bunda da şübhə yoxdur.

Odur ki, (belə bir sual meydana çıxır); Ən düzgün mənhəc hansıdır? Ən doğru yol hansıdır?

Şübhəsiz ki ən düzgün yol Peyğəmbərin ﷺ hər dəfə barəsində danışdığı və hər xütbəsində səhabələrinə ***"ən xeyirli yol Muhəmmədin ﷺ yoludur"*** deyə xatırladığı yoldur.

---

Atılmış bu problemi tamamlamaq üçün onlara belə deyilir: Uca Allah döyüşü (cihadı) fərz etdikdən sonra demişdir: **"Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, *kafirlərdən* iki yüzünə qalib gələr; əgər aranızda yüz *səbirli kişi* olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır."** (əl-Ənfal, 65). Elə isə onlar neçədirlər?! Bir nəfər on nəfərlədir.

Sonra (uca Allah ayənin ardınca) demişdir: **"İndi Allah sizin *yükünüzü* yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Əgər aranızda yüz səbirli kişi olsa, *kafirlərdən* iki yüzünə qalib gələr; əgər aranızda min *səbirli kişi* olsa, Allahın izni ilə *kafirlərdən* iki mininə qalib gələr. Allah səbir edənlərlədir."** (əl-Ənfal, 66).

Bəzi alimlər deyirlər ki, bu ayə (müsəlmanların) zəif olduqları vaxta aiddir. Odur ki, hökm öz səbəbi ilə uyğunlaşır. Belə ki, uca Allah onlara (döyüşdə) on nəfərə qarşı səbirli (dözümlü) olmağı vacib etdikdən sonra belə dedi: **"İndi Allah sizin *yükünüzü* yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi."**

Sonra isə biz onlara belə deyirik: "Əgər biz mükəmməl dəlillərə qayıtsaq onların bu məsələni açıqladığını və aydınlaşdırdığını görərik. Onlardan biri də uca Allahın **"Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik"** ayəsidir. Deməli uca Allah hər kəsi yalnız gücü və qüvvəsi yetdiyi qədər yükləyər. Uca Allah həmçinin belə demişdir: **"Allahdan bacardığınız qədər qorxun"**. (ət-Təğabun,16).

Əgər – böyük alimlərin zikr etdikləri şərtlərə və normalara uyğun şəkildə – həmin hakimlərə qarşı çıxmağın vacibliyini fərz etsək, (onda görərik ki) bu bizim üzərimizə vacib deyildir. Çünki biz onu aradan götürə bilmirik. Odur ki, məsələ lap açıq-aydındır. Lakin buna baxmayaraq nəfsi istəklər öz sahibini uçuruma aparır.

Elə isə bütün müsəlmanlara – xüsusən də İslam hökmünü qaytarmağa daha çox diqqət yetirənlərə – Peyğəmbərin ﷺ başladığı kimi başlamaq lazımdır. Bunu da biz qısa olaraq iki yüngül kəlmədə qeyd edirik: (Saflaşdırma və tərbiyə).

Çünki biz işləri-gücləri hakimləri təkfir etməkdən başqa bir şey olmayan həmin ifratçıların bilmədikləri – və ya bilmək istəmədikləri – sabit və qatı həqiqətləri bilirik.

Onlar elə hey hakimləri təkfir etməkdə davam edirlər. Amma onlardan fitnə və fəlakətlərdən başqa heç nə törənmir!!.

Bu son illərdə onların əlləri ilə törənilən Məkkə fitnəsindən başlayaraq Misir fitnəsinə qədər baş verənlər, nüfuzlu insanların öldürülməsi, lap axır zamanlarda isə Suriyada baş verənlər, sonra hal-hazırda Misirdə və Əlcəzairdə baş verənlər və nəhayət bu fitnə və bəlanın nəticəsi olaraq günahsız müsəlmanların qanlarının axıdılması və bir çox fəlakətlərin və müsibətlərin baş verməsi göz qabağındadır.

Bütün bunların hamısı onların Kitab və Sünnəyə və ən əsası da uca Allahın **"Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."**[1] sözünə müxalif olmalarının nəticəsidir.

---

[1] əl-Əhzab, 21.

Əgər biz iddia deyil, doğurdan da bir ölkədə Allahın hökmünü qurmaq istəyiriksə hakimləri təkfir etməkdənmi başlamalıyıq – halbuki döyüşmək bir yana onlarla heç üzbəüz görüşə bilmirik – yoxsa Peyğəmbərin ﷺ başladığı şeydənmi başlamalıyıq? Əlbəttə ki, cavab belədir: **"Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."**

Bəs Allahın elçisi ﷺ nədən başladı?

Elmin qoxusunu iyləyən hər bir şəxs yəqin bilir ki, Peyğəmbər ﷺ dəvətə haqqı qəbul etməyə hazır olduqlarını güman etdiyi fərdi şəxslərdən başladı. Sonra da səhabələrdən onun dəvətini qəbul edənlər qəbul etdi. Bu isə Peyğəmbərin ﷺ həyatından bəllidir. Bundan sonra isə Məkkədə müsəlmanların başına gələn əzab-əziyyətlər və təzyiqlər baş verdi. Sonra da birinci və ikinci hicrət əmr olundu. Nəhayət uca Allah İslam dinini Mədinə şəhərində gücləndirdi. Elə orada da vuruşmalar və qarşıdurmalar başladı. Bir tərəfdən kafirlərlə, digər tərəfdən də yəhudilərlə baş verən döyüşlər başladı... və ilaxir.

Deməli necə ki Peyğəmbər ﷺ başlamışdır eləcə də biz insanlara həqiqi İslamı öyrətməyə başlamalıyıq. Lakin biz sadəcə insanları öyrətməklə kifayətlənməməliyik. Çünki artıq İslam dininə ondan olmayan, onunla heç bir əlaqəsi olmayan və möh-

təşəm İslam qəsrini dağıtmağa səbəb olan bir çox bidətlər və yeniliklər daxil olmuşdur.

Elə ona görə də dəvətçilərin borcudur ki, (ilk növbədə) İslam dinini ona daxil olan bu cür şeylərdən saflaşdırmadan başlasınlar.

Birinci əsas elə budur: Saflaşdırma!

İkinci əsas da odur ki, bu saflaşdırmaya gənc və naşı müsəlmanın saflaşmış həmin İslam üzərində tərbiyələnməsi də əlavə olunmalıdır.[1]

Əgər biz (yalnız) bir əsrdən bəri yaranan İslam camaatlarını, onların düşüncələrini və məşğuliyyətlərini öyrənsək görərik ki, İslam hökuməti istəyirik deyə hay-küy salıb qışqırdıqlarına baxmaya-

---

[1] Möhtərəm şeyximiz İbn Useymin ﷺ demişdir: "Şeyx əl-Albani ilk olaraq İslamı saflaşdırmaq istəyir. Çünki indiki İslamda qatışıqlar (nöqsanlar) vardır. Əqidədə olan qatışıqlar, əxlaqda olan qatışıqlar, əlaqələrdə olan qatışıqlar, ibadətlərdə olan qatışıqlar. Bütün bu dördündə də.

- Əqidədə olan qatışıqlar: Biri əşaridir, biri mötəzilidir, biri elədir, biri belədir...

- İbadətdə olan qatışıqlar: Biri sufidir, biri qədəriir, biri ticanidir... və s.

- Əlaqələrdə olan qatışıqlar: Biri investisiya sələmini halal edir, digəri isə onu haram edir, biri qumarı halal edir, digəri isə onu haram edir.

Odur ki, ilk növbədə İslamın bu cür qatışıqlardan saflaşmasına ehtiyacı vardır. Bana isə alimlərin və elm tələbələrinin böyük zəhməti lazımdır. Bundan sonra isə gənclər qatışıqlardan saflaşmış həmin İslam üzərində tərbiyə olunurlar. Belə olduğu təqdirdə həm Kitab və Sünnəyə həm də sələfi salehə uyğun sağlam əqidə və gözəl əxlaq üzərində olan gənclərdən ibarət yeni nəsil meydana çıxır."

raq onların əksəriyyəti nə bir fayda qazanıb, nə də ki başqasına bir fayda veriblər ki, onu da xatırlayaq. (Onların əsaslandıqları) bu zəif dəlilin nəticəsi olaraq çoxlu sayda insanların qanları töküldü.

Onların şəriətə müxalif olan uğursuz cəhdlərini (yenidən) təkrarlamaları bir yana, biz hələ onlardan Kitab və Sünnəyə müxalif olan (yeni-yeni) əqidələr və Kitab və Sünnə ilə ziddiyyət təşkil edən (yeni-yeni) əməllər də eşidirik.

Sonda belə deyirəm: "Dəvətçilərdən birinin bir sözü var – istərdim ki, onun ardıcılları ona əməl etsinlər və onu həyata keçirsinlər – : "Öz qəlbinizdə İslam dövləti qurun ki, torpağınızda da sizin üçün qurulsun".[1]

Çünki müsəlmanın əqidəsi Kitab və Sünnəyə əsasən səhih olarsa, şübhəsiz ki, bunun vasitəsilə onun ibadəti də, əxlaqı da, xasiyyəti də və sairə düzələcəkdir.

Amma çox təəssüf ki, bu gözəl sözə həmin insanlar əməl etmədilər və beləliklə müsəlman dövləti qurmaq istəyirik deyə qışqırmaqda davam etdilər. Lakin bu heç bir nəticə vermədi. Bu yerdə şair onlar barəsində yaxşı demişdir:

Nicat istəyirsən, amma onun yolu ilə getmirsən,
Şübhəsiz ki gəmi də quruda getmir.

---

[1] Şeyx İbn Useymin demişdir: "Allah özü kömək olsun, bu söz çox gözəl sözdür."

Yəqin ki, bütün bu qeyd etdiklərim hər bir insaflı şəxsə qane edər və hər bir sərbəst insana yetər. Allah kömək olsun!

## Böyük alim şeyx Abdulaziz bin Bazın ﷺ rəyi.

Həmd Allaha məxsusdur. Allahın elçisinə, onun ailəsinə, səhabələrinə və onun yolu ilə gedənlərə salam və xeyir dua olsun.[1]

Hörmətli şeyximiz Muhəmməd Nasiruddin əl-Albaninin (Allah onu Cənnətə müvəffəq etsin) "Müsəlmanlar" qəzetində çap olunmuş "Allahın nazil etdiyindən qeyrisi ilə hökm verəni təfsilatsız olaraq təkfir etmək olarmı?" sualını verən şəxsə verdiyi faydalı cavabı oxudum.

Sonra da bunun çox qiymətli bir cavab olduğunu gördüm. O bu cavabda haqqa nail olmuş və möminlərin yolu ilə getmişdir. O açıqlamışdır ki, heç kəs Allahın nazil etdiyindən qeyrisi ilə hökm verən şəxsin bunu qəlbində də halal etdiyini bilməyincə əməlinə görə onu birbaşa təkfir etməmə-

---

[1] Bu hörmətli şeyximiz Abdulaziz bin Abdullah bin Bazın ﷺ şeyx Muhəmməd Nasiruddin əl-Albaninin ﷺ əvvəldə qeyd etdiyimiz sözlərinə olan izahatıdır. Bu "Dəvət" jurnalının hicri ilə 1416/5/11 tarixinin (miladi ilə 1995/10/5 tarixinin) 1511-ci nömrəsində nəşr olunmuşdur. Bunu həmçinin "Müsəlmanlar" qəzeti də hicri ilə 1416/5/12 tarixində (miladi ilə 1995/10/6 tarixində) 557-ci nömrəsində çap etmişdir.

lidir. Şeyx əl-Albani buna həm İbn Abbasdan ﵄, həm də digər sələfi salehdən dəlillər gətirmişdir.

Şübhəsiz ki, o bu cavabda qeyd etdiyi **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir", "Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımlardır", "Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir"** ayələrinin təfsiri doğrudur.

Şeyx açıqlamışdır ki, böyük və kiçik olmaqla zülm və fasiqlik iki növ olduğu kimi küfr də iki növdür: Böyük və kiçik küfr.

Beləliklə, kim Allahın nazil etdiyindən qeyrisi ilə hökm verməyi və ya zinanı, yaxud sələmi, yaxud da haram olmasında bütün müsəlmanların yekdil rəydə olduqları digər şeyləri halal görərsə, o böyük küfr, böyük zülm və böyük günah etmiş olur.

Kim də bunları halal görmədən edərsə İbn Məsudun ﵁ Peyğəmbərdən ﷺ rəvayət etdiyi ***"Müsəlmanı söymək günah, onunla vuruşmaq isə küfrdür!"*** hədisinə görə onun küfrü kiçik küfr, zülmü kiçik zülm və fasiqliyi da kiçik fasiqlik olur. Peyğəmbər ﷺ bu hədisdə kiçik fasiqliyi və kiçik küfrü nəzərdə tuturdu. Amma o insanları bu çirkin əməldən çəkindirmək üçün belə dedi.

Peyğəmbərin ﷺ ***"İki şey vardır ki bunların insanlarda olması küfrdür: Əsil-nəcabətə tənə vur-***

***maq və ölü üçün fəryad etmək!"***[1] və ***"Məndən sonra bir-birinizin boynunu vurmaqla kafir olmayın!"***[2] hədisləri də bunun mislindədir. Bu cür mənada olan hədislər çoxdur.

Odur ki, hər bir müsəlmana, xüsusən də elm əhlinə bütün məsələləri yəqin etmək (təsbit etmək), onlara Kitab və Sünnənin işığında və sələfi salehin yolu ilə hökm vermək və təfsilatsız olaraq hökmlər verən əksər insanların getdiyi təhlükəli yoldan çəkinmək lazımdır.

Elm əhlinin də borcudur ki, Allaha olan dəvətdə təfsilatlı olmağa, İslamı insanlara Kitab və Sünnədən olan dəlillərlə açıqlamağa, onları İslam üzərində möhkəm dayanmağa (sədaqətli olmağa) həvəsləndirməyə, bu işdə məsləhətləşməyə və nəsihət verməyə və (insanları) İslam hökmlərinə müxalif olan bütün şeylərdən çəkindirməyə diqqət yetirsinlər.

Bununla da onlar haqq yolunu açıqlamaqda, insanları ona yönəltməkdə və onları aşağıda qeyd edəcəyimiz ayə və hədislərə müxalif olan şeylərdən çəkindirməkdə həm Peyğəmbərin ﷺ, həm onun raşidi xəlifələrinin, həm də (Allahın) razı qaldığı səhabələrinin yolu ilə getmiş olurlar. Uca Allah buyurur:

---

[1] Hədisi Muslim rəvayət etmişdir.

[2] Hədisi Buxari və Muslim Cərirdən ﵁ rəvayət etmişdir.

*"İnsanları* **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!"– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?"**[1]

**"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən,** ***insanları*** **Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm."**[2]

*"İnsanları* **Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır."**[3]

Peyğəmbər ﷺ demişdir:

***"Kim xeyrə yönəldərsə ona onu (həmin xeyri) edənin savabı qədər savab yazılır."***

***"Kim doğru yola dəvət edərsə ona (həmin yola) tabe olanların savabı qədər savab yazılır. Bu (həmin yola tabe olanların) savablarından heç nə azaltmır. Kim də azğınlığa dəvət edərsə ona (həmin yola) tabe olanların günahı qədər günah yazılır. Bu isə (həmin yola tabe olanların) günahından heç nə azaltmır."***

Peyğəmbər ﷺ Əli bin Əbi Talibi رضي الله عنه Xeybər yəhudilərinin üzərinə göndərdikdə ona demişdir: ***"(Öncə) onları İslama dəvət et və onlara Allahın onlar***

---

[1] Fussilət, 33.
[2] Yusuf, 108.
[3] ən-Nəhl, 125.

***üzərində olan haqqını çatdır. Allaha and olsun ki, əgər Allah sənin vasitənlə bir kişiyə hidayət verərsə bu sənin üçün qırmızı dəvə karvanlarından daha xeyirlidir."*** [1]

Peyğəmbər ﷺ Məkkədə ikən on üç il insanları nəsihətlə, hikmətlə, səbirlə və gözəl bir üslubla Allahın təkliyinə və İslam dininə daxil olmağa çağırdı. Nəhayət uca Allah həm onun, həm də səhabələrinin əli ilə xoşbəxtliyi ilk qazananlara hidayət verdi. Sonra isə o ﷺ Mədinəyə hicrət etdi.

Uca Allah kafirlərə qarşı qılıncla olan cihadı fərz edənə qədər Peyğəmbər ﷺ və onun səhabələri ﵃ hikmətlə, gözəl öyüd-nəsihətlə, səbirlə və gözəl şəkildə mübahisə etməklə insanları Allaha dəvət etməkdə davam etdilər. (Uca Allah cihadı fərz etdikdən sonra isə) Peyğəmbər ﷺ və onun səhabələri ﵃ buna layiqincə (tam şəkildə) əməl etdilər. Uca Allah da onlara kömək etdi, qələbə qazandırdı və onlara gözəl bir aqibət nəsib etdi.

Qiyamət gününə qədər onların yolu ilə gedib, onlara gözəl şəkildə tabe olanlara bu cür gözəl aqibət və qələbə nəsib olacaqdır. Allahdan istəyirəm ki, həm bizi, həm də din qardaşlarımızı onlara gözəl şəkildə tabe olanlardan etsin və həm bizə, həm də Allaha dəvət edən qardaşlarımıza güclü dərrakə, saleh əməl və Allaha qovuşana qədər haqq

---

[1] Buxari və Muslim rəvayət etmişdir.

üzərində səbir bəxş etsin. Həqiqətən o buna layiqdir və buna qadirdir.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, səhabələrinə və Din (Qiyamət) gününə qədər onların ardınca gedənlərə Allahın xeyir duası və salamı olsun!

## Şeyx Muhəmməd əl-Useyminin ﵀ şeyx əl-Albaninin və Bin Bazın sözlərinə izahatı.

Bu iki şeyxin sözlərindən belə başa düşülür ki,[1] (Allahın nazil etdiyindən qeyri hökmü) halal hesab edən şəxs kafirdir. Amma onu (şəriətə) müxalif günah hesab edən şəxs isə kafir deyildir. Çünki bu əməli halal hesab etmir. Ola bilsin ki, o bunu qorxudan, acizlikdən və ya bunlara bənzər şeylərdən edə bilər. Belə olduğu təqdirdə əvvəldə qeyd edilən ayələr[2] (insanları) üç sinfə bölür:

---

[1] Şeyx əl-Albaninin "Təkfir və Allahın nazil etdiyindən qeyrisi ilə hökm vermək" məsələsi barəsindəki əvvəldə qeyd edilən sözləri şeyx İbn Useyminə oxunduqdan sonra bunları demişdir. Ona həmçinin şeyx İbn Bazın şeyx əl-Albaninin sözlərinə olan izahatı da oxunmuşdu. Bundan sonra şeyx İbn Useymin bütün əvvəldə deyilənlərə yekun olaraq bir-iki kəlmədən ibarət olan qısa və faydalı izahatını verdi. Allahdan istəyirik ki, bununla (ümmətə) fayda versin!

[2] Yəni, uca Allahın **"Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir", "Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımlardır", "Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir"** ayələri. (əl-Maidə surəsi, 44, 45 və 47-ci ayələri).

1 – Kim Allahın dinini Allahın nazil etdiyindən qeyrisi ilə əvəz edərək onunla hökm verərsə, bu (insanı) dindən çıxardan böyük küfrdür. Çünki həmin şəxs özünü uca Allahla yanaşı qanun qoyan hesab etdi. O həmçinin Allahın şəriətinə də nifrət etdi.

2 – Kim nəfsində olan istəklərə görə və ya qorxudan, yaxud da bunlara bənzər şeylərə görə (Allahın nazil etdiyindən qeyrisi ilə) hökm verərsə kafir olmur, lakin o fasiq (günahkar) olur.

3 – Kim düşmənçilik və zülm etməklə – bu qanunların hökmünə aid deyildir, bu xüsusi hökmə aiddir, məsələn: hər hansı bir insandan intiqam almaq üçün Allahın nazil etdiyindən qeyrisi ilə hökm verir – (Allahın nazil etdiyindən qeyrisi ilə) hökm verərsə, onun barəsində deyirlər ki, "o zalımdır".

Bəzi alimlər deyirlər ki, bu üç sifət bir şəxsin vəsfidir. Yəni, hər bir kafir zalımdır və hər bir kafir fasiqdir (günahkardır). Onlar bu dediklərinə uca Allahın **"Kafirlər isə zalımdırlar"**[1] və **"Fasiqlərə gəldikdə isə, onların sığınacağı yer od olacaqdır."**[2] ayələrini dəlil gətirdilər. Böyük fisq (günah) elə budur.

---

[1] əl-Bəqərə, 254.
[2] əs-Səcdə, 20.

Şeyx əl-Albaninin ﵀ dediyi kimi, məsələ necə olursa olsun insan gərək fikir versin ki, nəticə nə olacaqdır? Məsələ heç də nəzəri deyildir, amma mühüm odur ki, əməli tətbiq (zamanı) nəticə nə olacaq?

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, səhabələrinə və Din (Qiyamət) gününə qədər onların ardınca gedənlərə Allahın xeyir duası və salamı olsun!